# Türk xalqının qəlbinə əbədi həkk olunan Lider







***Türkiyə Qurtuluş Savaşının hərbi və siyasi lideri, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk 1881-ci ildə Yunanıstanın Selanik şəhərində dünyaya gəlib. Orta təhsilini məhəllə məktəbində alan Mustafa 1893-cü ildə Selanik hərbi məktəbinə daxil olub. Burada təhsil alarkən məktəbin riyaziyyat müəllimi yüzbaşı (kapitan) Mustafa Səbri bəy ona mükəmməl mənasına gələn "Kamal" adını verib. Fransız dili müəllimi yüzbaşı Nakiyüddin bəyin fikirləri isə Mustafa Kamalda müstəqillik düşüncəsi formalaşdırıb.***

1896-cı ildə Monastır Hərbi Məktəbinə daxil olub və 1899-cu ildə həmin məktəbi bitirib. 1897-ci ildə başlayan Osmanlı-yunan müharibəsində iştirak etmək istəsə də, həm yaşının azlığı, həm də tələbə olması səbəbilə buna izn verilməyib.

1899-cu ildə İstanbul "Mekteb-i Harbiye-i Şahane"yə (Hərbi Akademiya) daxil olub və 549 tələbə arasında birinci ili 27, ikinci ili 11, üçüncü ili isə 8-ci yerdə mülazim (leytenant) rütbəsilə başa vurub. 1905-ci ildə isə həmin akademiyadan Kurmay Yüzbaşı (Qərargah Kapitanı) rütbəsi ilə məzun olub.

Mustafa Kamal ozamankı Osmanlı ordusunun tərkibində ölkənin müxtəlif yerlərində vəzifələrdə olub, getdiyi yerlərdə isə hərbi vəzifəsi ilə yanaşı, müstəqillik fikirlərini də təbliğ edib.

Bir çox müharibədə iştirak edən Mustafa Kamalı Osmanlı padşahı IV Vahidəddin Anadoluya göndərib. 1919-cu il mayın 19-da Samsun şəhərinə çatan Mustafa Kamal iyunun 22-də hazırladığı bəyanatla gələcəyin millətin əzmkarlığı və qərarlılığı ilə xilas ola biləcəyini elan edir.

Beləliklə, Mustafa Kamal Atatürk Qurtuluş Savaşının lideri və Türkiyə Cümhuriyyətinin qurucusu kimi siyasi və hərbi uğurları ilə tarixin ən önəmli liderləri sırasında yer alıb.

Liderlik bir qrupun və ya təşkilatın məqsədlərinə çatmaqda əsas amildir və liderin sahib olduğu əsas xüsusiyyətlər, qətiyyət, ünsiyyət bacarıqları, ilham vermək bacarığı, cəsarət və ədalət hissidir. Atatürk bu xüsusiyyətlərin hər birini tarixi boyu nümunə göstərən lider sayılır.

Qətiyyətlilik liderin məqsədlərinə çatmaq üçün lazımi addımları atmaq və maneələr qarşısında təslim olmamaq iradəsini ifadə edir. Atatürk qarşılaşdığı çoxsaylı çətinliklərə baxmayaraq, müstəqil türk dövləti qurmaq əzmini nümayiş etdirərək Samsuna gedib və Qurtuluş Savaşına başlayıb. O, milli mübarizədə bir çox çətinliklərlə üzləşib. Çünki işğalçı qüvvələr Anadolunu işğal edərək türk millətinə böyük təzyiqlər göstərirdilər. İzmirin yunan qüvvələri tərəfindən işğalı və onların Anadoluya doğru irəliləməsi milli mübarizənin ən böyük çətinliklərindən biri idi.

Daxili parçalanmalar və üsyanlar da Atatürkün başçılığı altında milli mübarizəyə ciddi çətinlik yaradıb. Anadoluda müxtəlif etnik və siyasi qruplar arasındakı qarşıdurmalar milli birliyə nail olmaq üçün səyləri çətinləşdirib. Bu çətinlikləri aradan qaldırmaq üçün Atatürk milli birlik və həmrəylik mesajları vermiş, müxtəlif qrupları milli mübarizə çətiri altında birləşdirməyə çalışmışdır.

Ünsiyyət çətinlikləri və ölkəyə təzyiqlər Atatürkün rəhbərliyi dövründə digər problemlərdən biri olub. Osmanlı İmperatorluğunun geniş coğrafiyası və dövrün kommunikasiya infrastrukturunun qeyri-kafi olması milli mübarizə mesajlarının ictimaiyyətə çatdırılmasını çətinləşdirib. Bu çətinliklərin öhdəsindən gəlmək üçün Atatürk müxtəlif ünsiyyət kanallarından səmərəli istifadə etmiş, qəzetlər, broşürlər, yığıncaqlar vasitəsilə ictimaiyyəti məlumatlandırmış, onları milli mübarizə ətrafında birləşməyə çağırmışdır.



Atatürkün rəhbərlik etdiyi dövrdə üzləşdiyi çətinliklər onun strateji düşünmə qabiliyyəti, qətiyyəti və xalqı birləşdirə bilmək bacarığı sayəsində aradan qaldırılıb. Bu çətinliklər həm də Türkiyə Cümhuriyyətinin təməlini qoyan uğurların mənbəyi olub.

Ünsiyyət liderin öz fikirlərini effektiv şəkildə ifadə etmək və digər insanları inandırmaq bacarığıdır. Atatürkün Nutukdakı çıxışları da onun güclü ünsiyyət bacarığının və təsirli natiqlik qabiliyyətinin sübutudur. "Cənablar, sabah Cümhuriyyəti elan edəcəyik!". Bu, onun Cümhuriyyətin elan edilməsindən bir gün əvvəl verdiyi tarixi bəyanatdır və bu da onun aydın və inandırıcı ünsiyyət tərzini göstərir.

İlham vermək bacarığı liderin digər insanları motivasiya etmək və onları bir məqsəd üçün hərəkətə keçmək istəyinə sövq etməkdir. Atatürk "Mənim təvazökar bədənim bir gün mütləq toza dönəcək, amma Türkiyə Cümhuriyyəti sonsuza qədər yaşayacaq", - deyib. Onun bu sözləri xalqına inamını, onu gələcəyə daşıyacaq ideallarını sübut edir.

Ən böyük dünya liderləri üçün cəsarət çətinliklər qarşısında qorxmadan hərəkət etmək və çətin qərarlar qəbul edə bilməklə eyniləşdirilir. Atatürk, hətta Gelibolu döyüşündə "Mən sizə hücum əmri vermirəm, ölməyi əmr edirəm", - deyib. Onun göstərdiyi şücaət əsgərlərinin etimadını qazanmağa və onları ruhlandırmağa imkan verib.

Atatürkün liderlik keyfiyyətləri Türkiyənin modernləşmə prosesində uğur qazanmasının açarı olub. Hər bir hekayə və sitat onun bu xüsusiyyətləri necə canlandırdığına dair konkret nümunələr verir. Liderlik keyfiyyətləri sayəsində Atatürk həm Türkiyədə, həm də dünya tarixində hörmətli bir lider kimi xatırlanır.

Atatürkün həyatının qısa xülasəsi göstərir ki, liderlik qabiliyyətinin formalaşmasında tarixi şərait və həyat təcrübələri çox əhəmiyyət daşıyır. Onun zəkası xüsusilə mürəkkəb problemlərin həllində və strateji planlaşdırmada da özünü göstərib. Atatürkün analitik düşünmə qabiliyyəti və situasiyaları qiymətləndirmək bacarığı döyüş meydanlarında və diplomatik masalarda verdiyi qərarlarla aydın şəkildə nümayiş etdirilib. Nəticə etibarilə Atatürklə dünya liderlərinin ortaq cəhətlərinin ailə nizam-intizamı və iradəsi, təhsillə qazanılan bilik və bacarıqlar, baxış və hədəflərlə formalaşdığını düşünmək olar. O, ağlı və qətiyyəti ilə Türkiyənin taleyini dəyişdirən bir transformasiya prosesinin təməlini qoyub.

Mustafa Kamal Atatürk təkcə türk millətinin gözündə deyil, dünyanın bir çox yerində tarixin ən nüfuzlu liderlərindən biri hesab olunur. O, Türkiyə Cümhuriyyətinin yaranmasından bu yana ölkənin modernləşmə prosesində iz qoymuş və bir çox sahələrdə köklü dəyişikliklərə öncüllük etmişdir.

Atatürk Osmanlı İmperiyasının xarabalıqları üzərində müasir, dünyəvi və demokratik bir milli dövlət qurmaq istedadına sahib olub. Bu istedadını həyata keçirmək üçün Atatürk təhsildən hüquqa, əlifbadan geyimə qədər bir çox sahədə köklü dəyişikliklər edib. O, bu islahatlarla Türkiyəni Qərb standartlarına və müasir həyata uyğun bir ölkəyə çevirməyi qarşısına məqsəd qoyub və bunu bacarıb.

Qurtuluş Savaşı illərində liderlik qabiliyyəti ilə milli qəhrəmana çevrilən Atatürk xalqının istiqlal və azadlıq mübarizəsində ilham mənbəyi olmuşdur.

Atatürk çətin anlarda xalqın arasında olub, problemlərini dinləyib, həll yollarını tapıb. Bu münasibəti ilə xalqın etibarını, sevgisini, hörmətini qazanıb. O, bu inamı müharibə zamanı verdiyi qərarlarla daha da möhkəmləndirib. Məsələn, Sakarya döyüşündə düşmənin gözlənilməz hücum qarşısında göstərdiyi soyuqqanlılıq və qətiyyət müharibənin gedişatını dəyişdirən amillərdən biri hesab olunur.

Mustafa Kamal Atatürkün 57 illik həyatı böyük bir imperiyanın dağılmasına və onun yerində milli dövlətin qurulmasına səbəb olan müharibələr və əzmkarlıq uğrunda mübarizə ilə keçib. O, həyatı boyu öz sağlamlığına kifayət qədər diqqət yetirməyib, fəaliyyətinə fasiləsiz həyata keçirmək və Hatay məsələsini yekunlaşdırmaq əzmində olub. Türkiyənin bu məsələdə qəti qərarlı olduğunu göstərmək üçün mayın 20-də Mersində hərbi hissələrin paradını izləyib, mayın 24-də isə Adanada hərbi hissələrə baxış keçirib. Ankaraya qayıdanda xəstəliyi daha da atıb. O, mayın 26-da dəniz havasının onun üçün yaxşı olacağı ümidi ilə İstanbula yola düşüb. Lakin xəstəliyinin üçüncü mərhələsi başladığı üçün heç bir müalicə kömək etməyib. Mustafa Kamal Atatürk vəsiyyətini sentyabrın 5-də yazıb. O, bütün daşınmaz əmlakını xəzinəyə və bələdiyyələrə bağışlayıb. Oktyabrın 29-da bir mesajla orduya müraciət edib və noyabrın 10-da cümə axşamı saat 09:05-də dünyasını dəyişib.

Atatürkün vəfatı xəbəri ölkədə böyük bir kədər yaradıb və bütün dünyada geniş əks-səda doğurub. Noyabrın 19-da Türkiyənin milli qəhrəmanının cənazə namazı qılındıqdan sonra İstanbuldan Ankaraya göndərilərək noyabrın 21-də keçirilən mərasimlə Etnoqrafiya Muzeyində hazırlanmış müvəqqəti məzara dəfn edilib. Cənazəsi 1953-cü il noyabrın 10-da Diyarşünaslıq Muzeyindən götürülərək əbədi məzarı olan Anıtqəbirə aparılıb.

Atatürkün liderlik mirası bu gün də Türkiyə və türk xalqının tarixində dərin izlər qoyub. Bu irs təkcə tarixi şəxsiyyətin xatirəsi deyil, həm də müasir Türkiyənin əsas dəyər və prinsipləridir. Atatürkün rəhbərliyi ilə həyata keçirilən islahatlar Türkiyənin sosial, iqtisadi və siyasi strukturunu əsaslı şəkildə dəyişdi.

Atatürkün "ən böyük əsərim" adlandırdığı Türkiyə Cümhuriyyəti onun liderlik irsinin konkret göstəricisidir. Onun qurduğu Cümhuriyyət türk xalqının suverenlik hüquqlarını bərpa və millətin öz müqəddəratını təyinetmə hüququnu təmsil etdi. Bu, türk xalqının özünə inamını artırdı və milli kimlik şüurunu gücləndirdi.

Atatürkün irsi bu gün də türk xalqının gündəlik həyatında, təhsildə, hüquqda, siyasətdə öz təsirini qoruyub saxlayır. Hər il noyabrın 10-da lideri anma tədbirləri türk xalqının Atatürkə bağlılığını, onun ideallarına sadiqliyini göstərir. Bundan əlavə, təhsil kurikulumunda Atatürk prinsiplərinə verilən önəm gənc nəsillərin bu irsi anlamasını və mənimsəməsini təmin edir.

Bir sözlə, Atatürkün liderlik irsi keçmişdən bu günə türk xalqının kimliyini formalaşdıran, sosial və mədəni dəyərlərə təsir edən, Türkiyənin müasir dünyada yerini müəyyən edən fundamental dəyər olaraq qalır. Bu irs türk xalqının keçmişlə bağlılığını qoruyaraq gələcəyə ümidlə baxmasına imkan verən bir güc mənbəyidir.

Hər il noyabrın 10-da Türkiyədə və xaricdə Atatürksevərlər onun xatirəsini hörmət və ehtiramla anır, dövlət, hökumət rəsmiləri, deputatlar, siyasi partiyaların liderləri, ictimaiyyətin nümayəndələri Anıtqəbiri ziyarət edirlər.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**